

# “Birçə, elə o şəklə əsaslanıb nələr yazmaq olar...”

## *Qarabağ zəfəri ədəbiyyatımızda necə əks olunmalıdır?*

**2020-ci ilin sentyabrın 28-də başlanan 44 günlük Vətən müharibəsi ölkəmizin tarixində qızıl hərflərlə yazıldı. Və bu qələbə, əlbəttə ki, ulu öndər Heydər Əliyevin müdrik siyasətini layiqincə davam etdirən cənab Prezident İlham Əliyevin böyük əzmkarlığı, zəhməti, gərgin əməyi, onun xalqına və xalqının ona inamının nəticəsidir.**

Bu gün Azərbaycan torpaqlarını erməni təcavüzkarlarından azad etmiş, işğal olunmuş ərazilərində üçrəngli, müqəddəs bayrağını sancmış bir ölkədir. Bu qələbənin ədəbiyyatda da öz əksini tapması siyasətdəki uğurlarımız kimi vacibdir. Ədəbiyyat adamlar yeni qələbənin əsərlərdə necə təzahür etməsi ilə bağlı fikirlərini bizimlə bölüşdü.

### "NƏLƏRİN HESABINA QALİB GƏLDİYİMİZİ YAZMALIYIQ"

**Millət vəkili, yazıçı Aqil Abbas** deyir ki, bizim Qarabağla bağlı əsərlərimizdə həmişə bir işıq, həmişə bir ümid olub. İçi mən qarışıq Qarabağ mövzusunda neçə-neçə yazarlar roman və povestlər yazıblar: ”Hamısında da inam olub, ümid olub. İnsanların taleyini yazmışıq, onların ürəklərindəki ümidi də yazmışıq, ağrını da yazmışıq. Oxuculara ümid vermişik ki, hər şey yaxşı olacaq. Və böyük bir qələbə qazandıq. Bu qələbə Azərbaycan tarixində böyük bir zəfərdir. Ali Baş Komandan başda olmaqla, ordumuz, xalqımız birləşdi. Bundan sonra çox əsərlər yazılacaq. İndi artıq başqa tərəfindən yazılacaq. Həmin əsərlərdə həsrət, çəkdiyimiz əziyyətlər olacaq, amma artıq qələbəmizi də yazacağıq. Biz bu qələbəni çox yüksək səviyyədə yazıb həm də dünyaya çıxartmalıyıq. Biz nələrin hesabına qalib gəldiyimizi yazmalıyıq. Bunları yazıçılar romanlarında, hekayələrində, şairlər şeirlərində yazacaqlar. Məsələn, Ramiz Qusarçaylının ”Azərbaycan bayrağı” şeiri var. Onu nə zaman oxusam, dinləsəm tüklərim qabarır. Mən indi birinin adını çəkdim. Bu mövzuda çox şeirlər yazılıb, yazılacaq da. İstedadlı yazıçılarımız, şairlərimiz çoxdur. Hamısı yazacaqlar. Mən ”Kaspi” qəzetini daim izləyirəm, ”Ədəbiyyat əlavəsi”ni xüsusən oxuyuram. Siz hər zaman müxtəlif mövzulara toxunursunuz, müsabiqələr keçirirsiniz, müxtəlif şair və yazıçılara həsr edilmiş xüsusi nömrələr hazırlayırsınız. Mən inanıram ki, ”Kaspi” qəzeti qələbəmizə, Şuşaya, Xarıbülbülə həsr olunmuş nömrələr hazırlayacaq, müsabiqələr keçirəcək.

Mən əminəm ki, indi Qarabağ haqqında daha maraqlı, daha gözəl əsərlər yazılacaq, filmlər çəkiləcək. Bilirsinizmi, mən düşünürəm ki, indiki dövrdə ən güclü mədəni silahlardan biri də filmdir. Məsələn ”Dolu” romanı Azərbaycanda 5.000 tirajla, Türkiyədə 50.000 tirajla nəşr edilib. Bunu da oxusun lap 200.000 adam. Amma bir filmə milyonlarla tamaşaçı baxır. Ona görə deyirəm ki, filimin gücü çoxdur. Mən bədii filmdən danışıram ha. Sənədli filmlər elə də çox baxılmır. Sənədli film daha çox arxiv üçündür. Bədii filmə maraq çox olduğundan, onlara üstünlük verilməlidir. Yaxşı filmlər çəkilməlidir və bu filmlər dünyanın müxtəlif dillərinə tərcümə olunaraq müxtəlif ölkələrdə nümayiş olunmalıdır. Onda qələbəmizi daha çox tanıda bilərik

Müharibə dövründən bir məşhur foto var. Əsgər bir çiynində silah, bir çiynində yaralı yoldaşını daşıyır. Yaralını döyüş meydanında qoymur, çiyninə alır və döyüşür. Bu, çox dəhşətli fotodur. Bu elə özü bir romanın, bir poemanın mövzusudur. Birçə, elə o şəklə əsaslanıb nələr yazmaq olar... Yaxud da, Ağdam peşə məktəbində idman müəllimi olan Hacı Əkbər Rüstəmov döyüşə iki oğlu və şagirdləri ilə getmişdi. Gözünün qabağında oğlu Sənan şəhid olmuşdu. O qəhrəmancasına güllənin qarşısan keçib öz oğlunu yox, şagirdini xilas eləmişdi. Bu həqiqətin özü də böyük bir mövzudur. Sözüm odur ki, qələbəmizlə bağlı mövzular hədsiz dərəcədə çoxdur”.







### "HƏR BİR ƏDİBİN BORCUDUR Kİ..."

**Azərbaycan Milli Ensiklopediyasının direktor müavini, şair Vaqif Bəhmənlinin** fikrincə, Azərbaycanın 44 günlük savaşda qazandığı qələbə ədəbiyyatda mütləq şəkildə çox yüksək səviyyədə öz təzahürünü tapmalıdır: ”Əsərlər müharibənin istənilən nüansından bəhs edə bilər. Mən müharibə haqqında əsər deyəndə ilk olaraq ”Uzaq sahillərdə” romanını xatırlayıram. Ordakı əfsanəvi qəhrəman Mixaylo - Mehdi Hüseynzadə həm də real qəhrəmandır. Yəni orda yazılanlar həqiqətə uyğundur. Yazıçı da onu inandırıcı yazıb, hətta əsər əsasında çəkilən film də çox inandırıcı çəkilib. Yəni yazılan əsərlər də həqiqətə uyğun, həm də inandırıcı olmalıdır. Keçmiş dövrün müharibə haqqında əsərlərini xatırlayanda Tolstoyun ”Hərb və sülh” romanı, Şoloxovun ”Sakit Don” əsəri göz önümə gəlir. Bu əsərlərdə həm tarixi həqiqətlərə baş vurulur, o zamanlarda yaşayan insanların xarakteri, o dövrkü mühit, səngərlədə baş verənlər o qədər dəqiq yazılıb ki. Sanki bu əsərlər həm də səngərdən, həmin epoxadan reportajdır. Mən istəyirəm ki, yeni yazılacaq əsərlərdə bütün xalqın gücü, iradəsi, düşmənin ruhu, döyüş gedən bölgələrin təbiəti, ab-havası və s. tam şəkildə əks olunsun. Azərbaycan bu qələbə ilə çox böyük bir tarix yaradıb, çox unudulmaz bir tarix yazıb. Bu tarix, bu yaşadığımız günlərin əhval-ruhiyyəsi tam şəkildə ədəbiyyatımızda öz əksini tapmalıdır. Məncə hər bir ədibin borcudur ki, bu mövzulara laqeyd qalmasın. Mənə elə gəlir ki, bu cür əsərlərin təqdimatı da çox önəmlidir. Onların ciddi şəkildə təbliğatı, təqdimatı da təşkil olmalıdır. Ədiblər yazdıqları əsərə diqqətli yanaşmalıdırlar. Əlbəttə ki, yazılan əsərlərin aralarında güclüsü də, zəifi də olacaq. Bu, çox təbiidir. Amma çalışmaq lazımdır ki, bu işə istedadlı yazıçılar girişsin. Mənə elə gəlir ki, xüsusən gənc yazıçılarımız daha çox maraq göstərməlidirlər. Mən, xüsusilə bu müharibəyə kompleks şəkildə yanaşılmasını istəyərdim. Yəni əsərləri təkcə indini yox, həm də 30 ilin tarixini əhatə etməlidir. Yəni bu münaqişənin özəyində nələrin dayandığını da qabartmağa ehtiyac var. Axı bu qələbə təkcə 44 günün savaşının qələbəsi deyil, bu illərin qələbəsidir. Qan yaddaşımız bir-birilə əlaqəli şəkildə ifadə olunmalıdır. Müharibə mövzusu aktualdır deyə bu mövzuda necə gəldi yazmaq olmaz. Bu cür əsərləri yazmaq qəlbdən gəlməlidir. Yəni burada təkcə peşəkarlığa da arxayın olmaq olmaz. Şeir, nəsr öz yerində, amma düşünürəm ki, hərbi publisistika da güclü şəkildə önə çıxmalıdır. Mən istərdim ki, hərbçilər də bu işə cəlb olunsun. Ən azından, gündəlik şəklində gördükləri, yaşadıqları yazılsın, çap olunsun. Ədəbiyyatçılar həm də onlara əsaslansınlar.

### "BUNUN MÜTLƏQ TƏRƏFİ PUBLİSİSTİKANIN, TARİXÇİLƏRİN ÜZƏRİNƏ DÜŞÜR"

**”Ulduz” jurnalının baş redaktoru, şair Qulu Ağsəs** deyir ki, ”Qarabağ zəfərindən necə yazılmalıdır?” sualını bir il bundan qabaq biz güman, xəyal, arzu eləyə bilərdik. Şükürlər olsun ki, artıq bu sual o qədər aktualdır ki, bunun üstündə biz hətta mübahisə eləməyə belə hazırıq: ”Birinci Qarabağ müharibəsi illərlə sürdü və həmin müharibə dövründə dava gedə-gedə əsərlər yazıldı, mahnılar bəstələnirdi, şeirlər qoşuldu və sənədli filmlər çəkildi. Amma müharibə bitəndən sonra da - Birinci Qarabağ savaşı qurtarandan sonra da, yenə şeirlər yazıldı, yenə kitablar yazıldı. Yenə də, bəlkə, yeni mahnılar bəstələnib. İndi onları saf-çürük eləməyin yeri deyil, yəni mövzumuz bu deyil, amma onsuz da onların bəziləri yaxşı, bəzilərinin ələ, bəzilərinin ortabab, bir çoxunun da zəif olduğunu hamımız bilirdik. Vətən müharibəsinə, İkinci Qarabağ savaşına - qırx dörd günlük Azərbaycan ordusunun zəfər yürüşünə gəlincə, bu qırx dörd gün ərzində də yenə qələmlər susmadı, hekayələr yazıldı, mahnılardan bəstələndi. Şeir isə həmişəki kimi öz işində idi. Qarabağ zəfəri bundan sonra da mütləq yazılmalıdır. Bunun mütləq tərəfi publisistikanın, tarixçilərin üzərinə düşür. Amma ədəbiyyatın mütləqiyyəti yoxdur. Ədəbiyyat bir könül işidir. Şeir, nəsr bir könlü işidir. İnanıram ki, könlü istəyənlər Qarabağ zəfərini qələmə alacaq. Kimin ürəyi istəyir qələmə alacaq və artıq yaşlı, orta nəsillə yanaşı, gənc nəsillə bərabər, yeniyetmələr də zəfərimiz barədə kifayət qədər şeirlər yazıb. Mən bunu nədən belə ürəklə deyə bilərəm? Çünki bu yaxınlarda yekunlaşacaq bir müsabiqə var. Qarabağ savaşına və zəfərimizə həsr olunmuş şeir müsabiqəsidir. Bu müsabiqə məhz ümumrespublika məktəbləri arasındadır. Mən orda münsif olduğuma görə, görürəm ki, kifayət qədər yetirməmiz də bu mövzuda şeirlər yazıblar. Deməli, Qarabağ zəfərinə nəinki yaşlı, orta nəsil, gənc, yeniyetmə nəsil də biganə deyil.

**Hazırladı: Xanım Aydın**